**UNICEF nümayəndəsi: İqlim dəyişikliyi uşaqlara da təsirsiz ötüşmür**

İqlim dəyişikliyi insanların həyatına təsir edir və onu dəyişdirir. Bu, bizim hələ də cavabı tapılmayan vacib məsələlərimizdən biridir. İqlim dəyişikliyi, həmçinin uşaqlara da təsirsiz ötüşmür. Həmin proses onların həyatını, gələcəyini və talelərini dəyişir.

AZƏRTAC xəbər verir ki, bunu UNICEF-in Azərbaycandakı nümayəndəsi Saca Faruq Abdullah noyabrın 7-də ADA Universitetində YOUNGO və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən İqlim Dəyişmələri üzrə Gənclərin 19-cu konfransında (COY19) deyib.

Onun sözlərinə görə, iqlim dəyişikliyi gənclərin və uşaqların təhsilinə, fiziki və psixi sağlamlığına uzunmüddətli təsir edə bilir. Xüsusilə qızlara, onların həyat tərzinə təsir göstərir: “Təəssüflər olsun ki, qlobal olaraq daha çox uşaq və gənc iqlim siyasətindən kənarda qalmışdı. Lakin COP28 və COP29-un həqiqətən dəyişikliklər yaratdığına şahid oluruq. Həmin prosesin gənclərin üzərindəki müsbət təsirindən çox məmnunuq. Biz hökumət və səfirlikləri dövlət proqramları çərçivəsində uşaqlar üçün həssas layihələrə maliyyə yardımı ayırmağa çağırırıq”.

“Mən COP29 Sədrliyinə belə mötəbər tədbiri təşkil etməkdə özünəinamına görə xüsusi təşəkkür edirəm. Etiraf edirəm ki, belə bir qısa zamanda tədbirin prosesləri uğurlu təşkil olunub. Azərbaycanın COP29-a çox uğurlu ev sahibliyi edəcəyindən əminəm”, - deyə o əlavə edib.

**AZƏRTAC**
**2024, 7 noyabr**